(Əvvəli 5-ci səhifədə).

Rayon polis şöbəsi cari ilin ötən dövründə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində uğurlu nəticələr qazanmışdır.

Qeyd olunmalıdır ki, bölgədə yol hərəkət təhlükəsizliyinin təmin edilməsi sahəsində də müsbət irəliləyişlər əldə edilmişdir. Keçirilmiş məqsədyönlü profilaktiki tədbirlər nəticəsində qeydə alınmış yol nəqliyyat hadisələrinin sayı azalmış, yol hərəkəti qaydalarının pozulması hallarına qarşı mübari-

## Azərbaycan polisi xalqın və dövlətin etibarlı dayağıdır

zə işi gücləndirilmişdir. Şöbədə vətəndaşların şəxsiyyət vəsiqələri ilə təmin olunması işi gündəmdə duran məsələlərdən birinə çevrilib. Qeydiyyatsız yaşayan şəxslərin aidiyyatı üzrə qeydiyyata alınması və seçici siyahılarına salınması daim diqqət mərkəzində saxlanılır.

Polis şöbəsinin fəaliyyətində vətəndaşlardan gələn şikayətlərin, məktublarda qaldırılan məsələlərin öyrənilməsi, onların qəbulunun keçirilməsi məsələsinə də xüsusi önəm verilir. Şöbədə daxil olmuş, ərizə və şikayətlərə qanunla müəyyən edilmiş müddətdə baxılaraq müvafiq tədbirlər görülmüşdür. Şöbə rəisinin, o cümlədən aidiyyatı xidmət sahələrinin əməkdaşlarının konkret qəbul saatları var. Bundan əlavə polis şöbəsinin, əməkdaşları müntəzəm olaraq yerlərdə əhali ilə görüşlər keçirir, onların problemlərini öyrənir, neqativ hallara qarşı mübarizə ilə əlaqədər maarifləndirmə işlərini aparırlar.

Ən yaxşı haldır ki, Qəbələ Rayon Polis Şöbəsi bu şöbədə uzun muddət işləmiş polis veteranlarını da unutmur. Bütün bayramlarda, xüsusən 2 iyul—Polis İşçiləri Günü münasibətilə burada veteranlarla görüş keçirilir, onların vəziyyəti ilə tanış olunur, nə kömək lazımdırsa, hamısı edilir. Bir sözlə, elə bir tədbir yoxdur ki, veteranlar yada salınmasın, xatırlanmasın. Onların problemlərinə yüksək diqqət və qayğı ilə yanışılması bütün polis veteranları tərəfindən böyük razılıqla qarşılanır.

İndi tam əminliklə deməк olar ki, Azərbaycan polisi xalqın və dövlətin etibarlı dayağıdır.

**Aslan CƏLİLOV.**

## Qəbələdə 3 min il yaşı olan kurqan aşkarlanıb

Qəbələ rayonunun Dızaxlı kəndi ərazisində aparılan arxeoloji qazıntılar zamanı 3000 il yaşı olan kurqan aşkar edilib.

APA-nın yerli bürosunun xəbərinə görə, AMEA-nın müxbir üzvü, Arxeologiya və Etnoqrafiya İnstitutunun antik dövr arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor İlyas Babayevin rəhbərliyi ilə aparılan arxeoloji araşdırmalar zamanı bu kurqanın eramızdan 1000 il əvvəl Qəbələ ərazisində yaşayan qəbilələrin, tayfaların başçısının kurqanı–yəni dəfn edildiyi yer olduğu məlum olub.

Diametri 35 metr olan kurqanın dəfn kamerası 4 metr daş və 3 metr torpaq qatı altından aşkarlanıb.

İ. Babayev qeyd edib ki, 1971-ci ildə həmin ərazidə arxeoloji qazıntılar zamanı iki ədəd xırda kurqan aşkar edilib. Həmin kurqanlar açılanda oradan böyük dəfinə tapılıb. Alimlər bu dəfinəni analiz edərək, Azərbaycan ərazisində pul sikkələrinin çap olduğunu və yerli xalqların 3000 il əvvəl beynəlxalq ticarətə qoşulduğunu təsdiqləyiblər. İ.Babayev ərazidə araşdırmaların davam etdiriləcəyini və Azərbaycan tarixi ilə bağlı yeni faktların üzə çıxacağını bildirib.

Qeyd edək ki, yeni tapılan tayfa başçısının kurqanı isə Azərbaycan və Koreya arxeoloqlarından ibarət beynəlxalq ekspedisiya tərəfindən öyrəniləcək.

# Heydər Əliyev və milli mətbuatımız

Ötən əsrin 90-cı illərinin əvvəlində dövlət müstəqilliyimizi bərpa etdikdən sonra milli mətbuatımızın inkişafında ciddi dönüş yaranmış, söz azadlığının təmini istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Bu gün müstəqil Azərbaycan, söz, fikir və məlumat azadlığının maksimum səviyyədə təminatı baxımından MDB məkanında ən qabaqcıl yerlərdən birini tutur.

Məlum olduğu kimi, müstəqilliyimizin ilk illərində kütləvi informasiya vasitələrimiz ciddi məhrumiyyətlərlə üzləşmişdir. Həmin dövrdə ölkədə hökum sürən gərgin ictimai-siyasi vəziyyət, müxtəlif siyasi qrupların öz məkrli iddialarını gerçəkləşdirmək üçün qeyri-qanuni cəhdlər göstərməsi söz və mətbuat azadlığının təmin edilməsinə ciddi maneələr yaradırdı. Həmin dövrdə jurnalistlər ağır senzura ilə üzləşir, fikirlərini sərbəst ifadə edə bilmirdilər. Mətbuat nümayəndələrinin ayrı-ayrı məmurlar tərəfindən təhqir olunması, nəşrlərin isə bağlanması adi hala çevrilmişdi.

Lakin xalqımızın xilaskar oğlu ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonrakı dövrdə isə ölkəmizin mətbuatının inkişafında tamamilə yeni mərhələ başlandı. Həmin dövrdən respublikada mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanıldı. Azərbaycan 1993-cü ildən insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşuldu. Son 18 ildə Əsas Qanunun tələblərinə müvafiq surətdə həyata keçirilmiş demokratik hüquqi islahatlar kütləvi informasiya vasitələrinin və jurnalistlərin normal fəaliyyətinə geniş imkanlar açdı. Ulu öndərin qanunvericilik təşəbbüsü əsasında 19 iyun 1998-ci il tarixli «Mətbuat azadlığı haqqında», 3 aprel 1998-ci il tarixli «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» tarixli qanunların qəbulu istiqamətində mühüm addımlardan olmuşdur. 2000-ci il 6 mart tarixli fərmanla isə «2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün tədbirlər proqramı» təsdiq olunmuşdur.

Ulu öndər Heydər Əliyevin 2001-ci il 20 iyul tarixli «Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında» fərmanı isə mətbuata dövlət dəstəyi yönümündə növbəti mühüm addım idi. Həmin fərman redaksiyaların kütləvi informasiya vasitələri məhsullarının illik satışından əldə etdikləri mənfəətdən ödədikləri verginin üç il ərzində dövlət büdcəsindən onlara ödənilməsini nəzərdə tuturdu. Eyni zamanda fərmanda ölkəyə gətirilən qəzet kağızına tətbiq olunan gömrük idxal rüsumunun azaldılması məsələsi də əksini tapmışdı.

Xatırladaq ki, ölkəmizdə son illər milli mətbuatın yubileylərinin geniş şəkildə qeyd edilməsi jurnalistlərin dostu ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimizin milli mətbuatımızın 125 illiyinin keçirilməsi haqqında 2000-ci ilin martında imzaladığı fərman bu istiqamətdə mühüm əhəmiyyət kəsb etdi. İqtisadi cəhətdən medianın güclənməsi, müstəqilliyinin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirildi. Bundan əlavə müxtəlif qəzetlərin dövlət nəşriyyatına olan borcları donduruldu.

Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də son 12 ildə ölkədə söz və mətbuat azadlığının yüksək səviyyədə təmini üçün bütün zəruri tədbirləri həyata keçirir. Bunların nəticəsi olaraq, Azərbaycanda söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Hazırda respublikada mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini sərbəst ifadə etməsinə lazımi imkanlar yaranmışdır.

**A. CƏLALOĞLU.**

# İpoteka kreditləşməsində yeniliklər

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Azərbaycan İpoteka Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydasını, İpoteka Fondunun Nizamnaməsini və ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında fərmanları imzalayıb. Beləliklə, həm institusional, həm də sosial-iqtisadi əhəmiyyəti olan addım atılıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı islahat tədbirlərini şərh edib. O deyib ki, yeni qaydalara əsasən İpoteka Fondunun nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, sədrinin və onun müavininin vəzifəyə təyin və azad edilməsi, Fondun yenidən təşkili və ləğvi məsələləri Prezidentin müstəsna səlahiyyətinə aid edilib.

Yeniliklərdən biri də "Elektron hökumət" portalında "Elektron ipoteka" sisteminin yaradılması və 2017-ci il yanvar ayının 1-dən tətbiq edilməsinin nəzərdə tutulmasıdır. Beləliklə, bu sahədə səmərəlilik, hesabatlılıq və şəffaflığın daha artırılması mümkün olacaq. Bundan isə ən çox Azərbaycan vətəndaşı qazanır.

Bundan başqa, ipoteka kreditlərinin verilməsinə dair tələblərin daha sosial yönümlü, reallığa uyğun olması diqqəti cəlb edən məqamlardandır. Belə ki, yeni qaydaya əsasən kreditin maksimal məbləğinin ölkədaxili sosial-iqtisadi vəziyyətin təhlili əsasında Cəmiyyətin Müşahidə Şurası tərəfindən müəyyən edilməsi, güzəştli ipoteka krediti üzrə illik faiz dərəcələrinin Cəmiyyətin Müşahidə Şurası tərəfindən müəyyən olunması müsbət yeniliklərdəndir.

Cəmiyyət tərəfindən təşkil olunan "Elektron ipoteka" sistemi ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin alınması üçün tələb olunan sənədlərin siyahısı və şərtlər barədə məlumatlar, kredit almaq istəyən şəxsin imkanının ipoteka kalkulyatoru proqramı vasitəsilə ilkin olaraq müəyyənləşdirilməsi, ipoteka krediti almaq istəyən şəxsin müvəkkil banka elektron müraciətinin real vaxt rejimində ona münasib görüş vaxtını seçməklə göndərilməsi və qeydiyyata alınması, ödənişlərin elektron formada həyata keçirilməsi və s. kimi yenilikləri əks etdirir.

Dəyişikliklər nəticəsində Azərbaycan vətəndaşlarının daha geniş təbəqələri ipoteka kreditindən yararlanacaq. Məsələn, gənc ailənin üzvü olan aşağıdakı şəxslər ipoteka alacaqlar: şəhid ailəsinin üzvü, Milli Qəhrəman, məcburi köçkün, ən azı 3 il dövlət qulluğunda qulluq edən şəxs, idman sahəsində xüsusi xidmətləri olan şəxs və fəlsəfə doktoru. Bu ildən ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxs də ipoteka ala biləcək. Bundan başqa, elmlər doktoru, ən azı 15 il dövlət qulluğunda olan şəxs, ən azı 3 il hərbi xidmətdə olan, həmçinin ehtiyata və istefaya buraxılmış hərbi qulluqçular da güzəştli ipoteka krediti ala biləcəklər. Ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxslərə də ipoteka ayrılacaq.

Yeni ipoteka qaydalarında əhalinin xeyrinə olan daha bir məsələ kreditin məbləğinin mənzilin qiymətinin 85 faizinədək artırılmasıdır. Əvvəllər bu məbləğ 80 faiz idi.

Yeni qayda ilə ipoteka krediti daha çox orta və aztəminatlı insanlar üçün əlçatan olacaq. Belə ki, ipoteka krediti ilə bahalı ev almaq mümkün olmayacaq: güzəştli ipoteka yalnız orta bazar qiymətindən baha olmayan "kupça"lı mənzillərə veriləcək. Əslində bu il aprelin 11-də yaradılmış Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyi də daha çox orta və aztəminatlı təbəqə üçün mənzil təminatını prioritet seçib. Azərbaycan dövləti uyğun qiymətə mənzillə təminat məsələsini "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" sənədində də təsbit edib. Deməli, dövlət qısa, orta və uzunmüddətli dövrdə əhalinin mənzillə təminatı məsələsini prioritet istiqamət kimi saxlayacaq.

Ümumilikdə, güzəştli ipoteka kreditinin verilməsi qaydalarında dəyişikliklər bu sahədə sistemli və davamlı islahatlar aparılmasını göstərir.